*Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi*

# Cümhuriyyətin 100 illik yubileyi xarici ölkələrdə də qeyd edilir




**Dnepropetrovsk Azərbaycanlıları Konqresinin təşəbbüsü ilə keçirilən tədbirdə Azərbaycanın Ukraynadakı səfiri Azər Xudiyev, Dnepropetrovsk Vilayət Admnistrasiyasının idarə rəisi Oleksandr Rakşa, Dnepr şəhər merinin müavini Oleksandr Şukalenko, Birləşmiş Ukrayna Azərbaycanlıları Konqresinin sədri Rövşən Tağıyev, Dnepropetrovsk Vilayətinin deputatı Qoşqar Muxtarov, Poltava vilayətinin Velikobaqaçanski rayon icra hakimiyyətinin başçısı Kamandar Bayramov, Dnepropetrovsk Azərbaycanlıları Konqresinin sədri Nəcəf Əhmədov və Konqresin fəxri sədri Qüdrət Hacıyev iştirak ediblər.**

Bayram şənliyinə qatılanlar ilk öncə "Sakura" Açıq Dövlət Muzeyində Dnepr Azərbaycanlıları Konqresinin təqdimatında Azərbaycanın qədim adət-ənənələri, milli mətbəx mədəniyyəti və zəngin musiqi dəyərləri ilə tanış olublar.

Azərbaycan Xalq Cümhuriyyətinin işığına toplaşanları bayram münasibəti ilə təbrik edən Azərbaycanın Ukraynadakı səfiri Azər Xudiyev 100 il bundan öncə şərqdə ilk dəfə yaradılmış Azərbaycan Demokratik Respublikasının tarixi nailiyyətlərindən söz açıb. Azərbaycan Demokratik Respublikasının cəmi 23 ay fəaliyyət göstərdiyini xatırladan diplomat 20-ci əsrin sonlarında 2-ci dəfə əldə olunmuş dövlət müstəqilliyimizin qorunub saxlanılmasında və inkişaf etdirilməsində ulu öndər Heydər Əliyevin tarixi xidmətlərindən danışıb. Təməli 100 il bundan öncə qoyulmuş müstəqil dövlətçilik ideologiyasının Prezident İlham Əliyev tərəfindən böyük uğurla davam etdirildiyini vurğulayıb. Azərbaycan və Ukrayna xalqlarının tarixi dostluq əlaqələrindən söz açan Dnepropetrovsk Vilayət Administrasiyasının idarə rəisi Oleksandr Rakşa və Dnepr şəhər merinin müavini Oleksandr Şukalenko müstəqil dövlətimizin 100 illiyi münasibəti ilə xalqımıza xoş və səmimi təbrikləri ni çatdırıblar.

Tədbirdə Birləşmiş Ukrayna Azərbaycanlıları Konqresinin sədri Rövşən Tağıyev, Dnepropetrovsk Vilayətinin deputatı Qoşqar Muxtarov, Dnepropetrovsk Azərbaycanlıları Konqresinin sədri Nəcəf Əhmədov, konqresin sədr müavini Qüdrət Hacıyev, Poltava vilayətinin Velikobaqaçanski rayon icra hakimiyyətinin başçısı Kamandar Bayramov və digər şəxslər çıxış edərək,1918-ci il may ayının 28-də yaradılmış Azərbaycan Demokratik Respublikasının məram və ideyalarının bu gün müstəqil dövlətimiz tərəfindən böyük uğurla davam etdirildiyini qeyd ediblər. Dünyanın müxtəlif ölkələrində yaşayan 50 milyondan çox azərbaycanlının müstəqil dövlətimizlə qürur duyduqlarını bildiriblər.

Bayram tədbirində Ukrayna Azərbaycanlıları Konqresi adından Dnepr şəhər xəstəxanasına Almaniya istehsalı olan tibbi avadanlıqlar hədiyyə olunub. Şənlikdə Ukraynanın Xalq artisti Qurban Abbasovun və digər mədəniyyət və incəsənət ustalarının nümayiş etdirdiyi konsert proqramı tədbirə qatılanlara xoş və yaddaqalan anlar yaşadıb.

**Qədir ASLAN,**
**"Respublika".**








28 may 1918-ci ildə Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə parlamentli respublika kimi yeni bir dövlətçilik ənənəsinin əsası qoyulmuşdur. Cəmi 23 ay yaşamasına baxmayaraq, bu respublika milli dövlətçilik sahəsində bir sıra zəruri tədbirlər həyata keçirməyə, Azərbaycanı beynəlxalq səviyyədə bütün dünyada tanıtmağa nail olmuşdur. "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" Azərbaycan Respublikası Prezidentinin imzaladığı məlum sərəncamın icrası ilə bağlı Nazirlər Kabinetinin 16 yanvar 2018-ci il tarixi qərarı ilə təsdiq edilmiş Tədbirlər planına müvafiq olaraq həm ölkəmizdə, həm də xarici dövlətlərdə silsilə tədbirlər həyata keçirilir.

Bu günlərdə bu tarixi hadisə ilə bağlı Avropanın bir sıra şəhərlərində, o cümlədən Lüksemburqda, Strasburqda (Fransa) və Cenevrədə də (İsveçrə) tədbirlər keçirilib. Lüksemburqda Qarabağ mədəniyyət mərkəzində keçirilən tədbirdə yerli diaspor təşkilatlarının nümayəndələri iştirak edib. Tədbiri Azərbaycanın Belçika və Lüksenburqdakı səfiri Fuad İsgəndərov açaraq AXC-nin yaranması tarixindən, ikinci dəfə müstəqilliyimizi əldə etdikdən sonra qazanılmış uğurlar, ulu öndər Heydər Əliyevin dövlət quruculuğu sahəsində misilsiz xidmətlərindən və cənab Prezident İlham Əliyevin bu gün apardığı uğurlu daxili və xarici siyasətdən bəhs edib.

Sonra çıxış edən Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) təmsilçisi Kamal Dadaşov XX əsrin sonlarında Azərbaycan öz dövlət müstəqilliyini yenidən bərpa etdikdən sonra Heydər Əliyevin rəhbərliyi altında müstəqil respublikamızın şərəflə keçdiyi sürətli inkişaf yolundan, ulu öndərin müəllifi olduğu uğurlu neft strategiyasından tədbir iştirakçılarına məlumat verdi.

Tədbirin təşkilatçılarından olan BF şirkətlər qrupunun təsisçisi Aydın Əhmədov çıxışında Cümhuriyyətin xalqımızın dövlətçilik tarixinin şanlı səhifələrindən olduğunu diqqətə çatdırdı, Prezident İlham Əliyevin 2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan etməsi və Cümhuriyyətin 100 illik yubileyinin yüksək səviyyədə qeyd olunması ilə bağlı imzaladığı sərəncamın önəmini qeyd etdi. Bildirdi ki, təməli 100 il bundan öncə qoyulmuş müstəqil, demokratik, suveren Azərbaycan bu gün durmadan inkişaf edir, dünyadakı nüfuz və hörməti günü-gündən yüksəlir. Aydın Əhmədov ölkədə turizmin inkişafı ilə bağlı danışarkən qeyd etdi ki, son illər Azərbaycanın sürətli inkişafı, bütün sahələrdə əldə olunan uğurlar, iqtisadi inkişaf və ölkəmizdə uğurla reallaşan beynəlxalq əhəmiyyətli tədbirlər ölkəmizdə turizmin inkişafına təkan vermiş və turistlərin böyük axınına səbəb olmuşdur. Bütün bunlar ölkə turizminə göstərilən diqqətin əyani təzahürüdür.

Strasburqda baş tutan tədbirdə çıxış edən Azərbaycanın Avropa Şurası yanındakı daimi nümayəndəsi, səfir Emin Yaqubov AXC-nin tarixi, qurucuları, ulu öndər Heydər Əliyevin müstəqillik yolunda apardığı uzaqgörən siyasəti və onun siyasi varisi Azərbaycan Prezidenti İlham Əliyevin Heydər Əliyev siyasi kursunu uğurla davam etdirməsi, onun rəhbərliyi ilə ölkəmizin müstəqillik yolunda inamla addımladığını, dinamik inkişafı və digər uğurlar barədə tədbir iştirakçılarına ətraflı məlumat verdi. Strasburqda baş tutan tədbirdə də təşkilatçı Aydın Əhmədov və Kamal Dadaşov məruzə ilə çıxış etdilər.

Cenevrədə baş tutan tədbirdə isə Azərbaycanın bu şəhərdəki BMT və digər beynəlxalq təşkilatlar yanında nümayəndəsi, səfir Vaqif Sadıqovun təmsilçisi Yusif Hüseynov çıxışında vurğuladı ki, bugünkü müstəqil Azərbaycan o vaxtkı AXC-nin varisidir və onun təməlini qoyduğu ənənələrə sadiqdir. Sonra çıxış edən Kamal Dadaşov SOCAR-ın həyata keçirdiyi layihələrdən, Aydın Əhmədov isə Azərbaycan turizminin potensialı, Azərbaycanda keçirilən digər mühüm tədbirlər barədə məlumat verdi, tələbələri maraqlandıran sualları cavablandırdı.




**Əli SADIQOV,**
**"Respublika".**